# Vurarlar

— *Doktor-Yazar İlhamə Müslümova* · 26 Kasım 2024



İnanma gəl, bir kimsənin düzünə,
Bu həyatda güvən ancaq özünə!
Ürəyini qızdırarsan sözünə ,
İmkan tapıb ürəyindən vurarlar...

Çalış , elə uzaqda dur bacarsan...
Gün gələr ki, anlayarsan...qaçarsan ...
Adam bilib sən qapını açarsan,
Gecə durub dirəyindən vurarlar...

Hər insanı eyni yerə qoyursan,
Tanıyarsan bircə dəfə buyursan...
Çörək verib qarınların doyursan ,
Gün gələr ki, çörəyindən vurarlar...

Çalış düşmə, möhtac olma heç kimə,
De ki özüm qatlanacam yükümə...
Yarımcanla yolun düşsə həkimə ,
Fürsət bilib xərəyindən vurarlar ....

Həyat desən... bir udumluq nəfəsdi ...
Ömür desən...boşa getdi , əbəsdi....
Eşq sanarsan...  görərsən ki  həvəsdi...
Dost sanarsan.... kürəyindən vurarlar...
Dr.İlhamə Müslümova